**BEYNƏLXALQ HÜQUQ; İNSAN HÜQUQLARI**
**INTERNATIONAL LAW; HUMAN RIGHTS**

UOT 341.226; UOT 341.229

**ZAFİQ XƏLİLOV**
**Milli Aviasiya Akademiyasının "Hüquqşünaslıq" kafedrasının müəllimi, hüquq üzrə fəlsəfə doktoru**
*e-mail: zafiq@mail.ru*

# BEYNƏLXALQ HAVA VƏ KOSMOS HÜQUQU: ÜMUMİ VƏ FƏRQLİ CƏHƏTLƏR KONTEKSTİNDƏ

XX əsrin 60-cı illərindən bu günə kimi beynəlxalq hava və kosmos hüququnun hüquq sahələri kimi müstəqilliyi məsələsi zaman-zaman geniş elmi diskussiya predmeti olmuşdur. Belə müzakirələr beynəlxalq hava hüququ və beynəlxalq kosmos hüququnun əlaqəliliyi və bağlılığını bir daha yeni müstəvidə gündəmə gətirib. Kommersiya imkanlarının hədəflərinin genişlənməsi və sürətli texnoloji inkişaf hava və kosmik məkanın hüquqi rejimləri arasında bir sıra problemlər yaradır [16]. Hava və kosmos hüququnun hazırki rejimləri qəbul olunan zaman atmosfer xaricində uçuşların reallaşdırılması mümkün deyildi [6]. Amma hazırki mərhələdə suborbital uçuşların müntəzəm şəkildə reallaşdırılması ilə bağlı layihələr hava və kosmik məkan arasında sərhədin müəyyənləşdirilməsi məsələsini olduqca zəruri edir. Beynəlxalq hüquq ədəbiyyatlarında hava və kosmik məkan arasında sərhədin müəyyənləşdirilməsi (hündürlüyün dəqiqləşdirilməsi) ilə bağlı daha çox aerokosmos hüququnun vahid və ya inteqrasiya edilmiş rejiminin olmaması fikrini bildirirlər. Bununla yanaşı, əksər alimlər qeyd edirlər ki, hava hüququ və kosmos hüququnun rejimləri arasında əhəmiyyətli dərəcədə bir-birini tamamlayan və uyğunsuz nüanslar mövcuddur. Texnoloji inkişaf nəticəsində kosmosda kommersiya fəaliyyətinin genişlənməsi bəzi hallarda hər iki hüquq sahəsinin (hava hüququ və kosmos hüququ) tənzimlədiyi normaların tətbiq edilməsinə imkan yaradan ortaq rejim qaydalarının yaranmasını zəruri edir [14, 590-91].

Bir çox səbəbləri əsas tutan bir qrup alim vahid hüquqi rejimin tətbiq olunması üçün iki sahənin (hava hüququ və kosmos hüququ) birləşdirilməsi tərəfdarıdırlar. Buna görə də, beynəlxalq hüquqda aerokosmos hüququnun mövcudluğu son illərdə daha çox gündəmə gəlir. Təbii ki, bu istiqamətdə əsas götürülən çoxsaylı səbəblərdən biri də aerokosmik obyektlərlə bağlıdır. Bu məsələyə də beynəlxalq hüquq ədəbiyyatında geniş diqqət ayrılır. Aerokosmik obyekt kosmik məkanda hərəkət edərək öz aerodinamik xüsusiyyətləri ilə müəyyən vaxt ərzində hava məkanında da ola bilər. Bəzi mənbələrdə aerokosmik obyektlər üçün xüsusi hüquqi prosedurların mövcud olması, vahid və ya unifikasiya edilmiş rejimin işlənib hazırlanması məsələləri xüsusilə aktuallaşmışdır. Bu gün müəyyən dövlətlər hava hüququ və kosmos hüququnun əsas prinsiplərini rəhbər tutaraq hava və ya kosmik məkanda aerokosmik obyektin uçuş rejimini fərqləndirirlər. Təbii ki, dövlətlər bu məsələdə hava hüququ nöqteyi-nəzərindən dövlətin öz hava məkanı üzərində tam və müstəsna suverenlik prinsipini, kosmos hüququ çərçivəsində isə kosmosun bəşəriyyətin ümumi irsi hesab olunması və heç bir dövlətin və ya şəxsin kosmik məkanın hər hansı bir hissəsinə («in rem») öz hüququnu bildirə bilməməsi prinsipini əsas tuturlar. Bəzi dövlətlər haqlı olaraq bildirirlər ki, hava və kosmik məkanın hüquqi rejimləri arasında fərqləri müəyyən etməzdən əvvəl bu iki məkan arasında sərhədin müəyyənləşdirilməsi sualına aydınlıq gətirmək

lazımdır. Sərhədlərin müəyyənləşdirilməsi bəzən elmi ədəbiyyatda delimitasiya (lat. delimitatio) kimi də xarakterizə olunur [1]. Məhz bu zərurətdən irəli gələrək bəzi dövlətlər aerokosmik fəaliyyət və uçuşları tənzimləyərək qüvvədə olan hüquqi norma və qaydaların toplusunu birləşdirən vahid hüquq sahəsinin olmasını bildirirlər. Belə bir vahid hüquq sahəsi qismində daha çox aerokosmos hüququnun adı hallandırılır.

Ümumilikdə, beynəlxalq hüquq ədəbiyyatlarında hava hüququ və kosmos hüququnun birləşdirilməsi ilə bağlı meyllərin inkişafını son illərdə tez-tez müşahidə edirik. Aerokosmos hüququnun bu formada təhlil olunması XX əsrin 60-cı illərindən təklif olunan və bu günə kimi davam etdirilən mübahisəli elmi müddəalardan biridir. Mübahisənin əsası ondan ibarətdir ki, bu yeni sahə (aerokosmos hüququ) beynəlxalq hüququn iki müstəqil sahəsinin (hava və kosmos hüququ) bir-biri ilə əlaqələndirilməsi və yaxınlaşmasını özündə birləşdirir. Bəzi alimlər hələ də müasir beynəlxalq hüquq ədəbiyyatında aerokosmos hüququnun antropogen uçuşların bütün mərhələlərini və növlərini əhatə edən vahid hüquq sahəsi kimi qəbul edilməsini olduqca vacib və zəruri hesab edirlər. [7] Bu cür inkişaf meyllərini biz nəinki hüquqşünas alimlərin elmi əsərlərində eyni zamanda, bir çox universitetlərin tədris proqramlarında, bu istiqamətdə fəaliyyət göstərən beynəlxalq hüquq firmalarının hüquq tətbiqetmə təcrübəsində də görə bilərik. Son illərdə ABŞ-ın tanınmış hüquqşünas alimi C.Skot Hamiltonun «Praktiki aviasiya hüququ» adlı kitabında aviasiya və aerokosmik məsələlərin birləşdirilməsi və daha çox aerokosmos hüququnun əhatə dairəsinin genişlənməsindən söhbət gedir [11]. Ümumilikdə ABŞ-da aerokosmos hüququ istiqamətində fəaliyyət göstərən çoxsaylı hüquq firmaları mövcuddur [3]. Son illərdə ABŞ hüquq ədəbiyyatında daha çox aerokosmos hüququ yanaşmasına üstünlük verilir. Fransa, Niderland Krallığı, Macarıstan və s. kimi ölkələrin universitetlərində hava və kosmos hüququna aid olan bütün mövzuların birləşdirilməsi yeni tədrisyönümlü formada gündəmə gətirilir [9; 4]. Avropa İttifaqında bu yanaşma praktiki hüquq xidmətləri səviyyəsində də, kifayət qədər geniş yayılmış və təsnifatlaşdırılmışdır [5]. Göründüyü kimi, Avropa universitetləri iki sahəyə aid məsələlərin daha çox birləşdirilərək bir sahə çərçivəsində tədrisdə təqdim olunmasına üstünlük verirlər.

Göründüyü kimi, müasir hüquqi tendensiyalar hava və kosmos hüququ sahələrinin birləşdirilməsini ortaya qoyur. Belə bir birləşmə hazırda beynəlxalq hüquq ədəbiyyatında aerokosmos hüququ konsepsiyası olaraq müşahidə edilməkdədir. Bu birləşmənin mümkünsüzlüyü isə hava hüququ və kosmos hüququ arasında əsaslı fərqlərin olmasından irəli gəlir. Bütün bu və digər əlaqəli səbəblər hava hüququ və kosmos hüququ arasında ümumi cəhətlərlə yanaşı, bir çox fərqlilikləri gündəmə gətirib. Sual yaranır: Bu iki hüquq sahəsi arasında əsas fərqliliklər nələrdən ibarətdir? Təbii ki, zaman zaman gündəmə gətirilən aerokosmos hüququ konsepsiyasının mümkün olub-olmamasını aydınlaşdırmaq üçün hava hüququ və kosmos hüququ arasındakı çoxsaylı fərqləri təhlil etmək lazımdır.

Beləliklə, seçilmiş məqalə mövzusunun aktuallığı, ilk öncə, beynəlxalq hava və kosmos hüququ arasında əsaslı fərqli cəhətlərin aydınlaşdırılması və müasir hüquq nəzəriyyəsi baxımından qiymətləndirilməsi ilə şərtlənir. Sözsüz ki, hava hüququ və kosmos hüququ sahələrinin ümumi və fərqli cəhətlərinin aydınlaşdırılması hazırda müasir beynəlxalq hüquq ədəbiyyatlarının gündəm mövzularından birinə çevrilmişdir. Yuxarıda şərh edilənlər sözügedən məqalə mövzusunun aktuallığını müəyyənləşdirməklə, bu məsələnin tədqiq edilməsini və bu istiqamətdə aparılan təhlillərin açıqlanmasının zəruriliyini şərtləndirmişdir.

Məqalənin məqsədi beynəlxalq hava və kosmos hüququ arasında ümumi və fərqli cəhətləri aydınlaşdıraraq bununla bağlı müasir hüquq nəzəriyyəsi baxımından daha məqsədəuyğun yanaşmanı əsaslandırmaqdır. Bu məqsədə nail olmaq üçün aşağıda göstərilən məsələlərin həlli xüsusilə vacibdir:

Hava hüququ və kosmos hüququnun fərqli hüquqi rejimlərinin xüsusiyyətlərinin şərh olunması;

Kosmos hüququ nöqteyi-nəzərindən mövcud fərqliliklərin aydınlaşdırılması;

Hava hüququ və kosmos hüququ arasında əsaslı fərqlərin təsnifatlaşdırılaraq sistemləşdirilməsi.

Hava hüququ və kosmos hüququ tamamilə fərqli hüquqi rejimlərlə tənzimlənir. Hava hüququnda hava əlaqələri haqqında ikitərəfli sazişlərlə yanaşı, beynəlxalq adət hüququ, milli qanunvericilik aktları və qaydaları və əlavə olaraq bu sahədə qəbul edilmiş bir sıra əsas çoxtərəfli Konvensiyalar əsas götürülür: «Hava Naviqasiyası haqqında» 1919-cu il tarixli Paris Konvensiyası, «Beynəlxalq Mülki Aviasiya haqqında» 1944-cü il tarixli Çikaqo Konvensiyası, «Beynəlxalq hava əlaqələri zamanı tranzit haqqında» Saziş («İki «hava azadlığı» haqqında» Saziş) və «Beynəlxalq hava nəqliyyatı haqqında» Saziş, «Beynəlxalq hava daşımalarına aid olan bəzi qaydaların unifikasiyası üzrə» Konvensiya (1929-cu il tarixli Varşava Konvensiyası) və onu əvəz edən «Beynəlxalq hava daşımalarına aid olan bəzi qaydaların unifikasiyası üzrə» 1999-cu il tarixli Konvensiya (Monreal Konvensiyası), «Hərəkətli avadanlıq üzrə beynəlxalq zəmanətlərə dair» 2001-ci il tarixli Keyptaun Konvensiyası və s.

Kosmos hüququnda isə dövlətlərarası ikitərəfli sazişlərlə yanaşı, beynəlxalq adət hüququ, Birləşmiş Millətlər Təşkilatının qətnamələri, beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş qərarlar, milli qanunvericilik aktları və qaydaları [13], məhkəmə qərarları və ən əsası aşağıdakı beş çoxtərəfli Konvensiya qeyd edilməlidir: 1) 1967-ci il tarixli «Kosmos haqqında» Saziş (Ay və digər səma cismləri də daxil olmaqla, kosmik fəzanın tədqiqi və istifadəsi üzrə dövlətlərin fəaliyyət prinsipləri haqqında Saziş); 2) «Kosmonavtların xilas edilməsi, kosmonavtların qaytarılması və kosmik fəzaya buraxılmış obyektlərin qaytarılması haqqında» 1968-ci il tarixli Saziş (Kosmonavtların xilas edilməsi haqqında Saziş); 3) «Kosmik obyektlərin vurduğu zərərə görə beynəlxalq məsuliyyət haqqında» 1972-ci il tarixli Konvensiya; 4) «Kosmik fəzaya buraxılan obyektlərin qeydiyyatı haqqında» 1975-ci il tarixli Konvensiya; 5) «Ayda və digər səma cisimlərində dövlətlərin fəaliyyəti haqqında» 1979-cu il tarixli Saziş (Ay haqqında Saziş).

Bu beynəlxalq sazişlər nəzərə alınaraq bu gün kosmos hüququ nöqteyi-nəzərindən mövcud fərqliliklər daha çox gündəmə gətirilir. Bütövlükdə kosmos hüququ üzrə olan bu çoxtərəfli konvensiyalar tələb edir ki, dövlətlər ayrı-ayrılıqda beynəlxalq hüququn prinsiplərinə riayət edərək yerdəki fəaliyyətlərə görə (dövlət və ya qeyri-dövlət fəaliyyətləri də daxil olmaqla) məsuliyyət daşısınlar. Bununla yanaşı, məhz bu beynəlxalq-hüquqi sənədlər əsasında dövlətlər səlahiyyətlərini icra edərək öz vətəndaşlarının kosmosdakı fəaliyyətinə nəzarət etməli və kosmik obyektlərini qeydiyyata almalıdırlar [8]. Bu baxımdan 1967-ci il tarixli Kosmos haqqında Sazişin tələbləri arasında aşağıdakı əsas məqamlar xüsusilə nəzərə alınmalıdır: 1) Dövlətlər beynəlxalq hüququn prinsiplərinə uyğun şəkildə kosmik fəaliyyəti həyata keçirməlidirlər [10]; 2) Dövlətlər həm dövlət, həm də qeyri-dövlət təşkilatlarının kosmik məkanda, Ay və səma cisimlərindəki milli fəaliyyətinə görə beynəlxalq məsuliyyət daşıyırlar; 3) Müvafiq dövlət öz vətəndaşlarının Kosmosdakı fəaliyyətinə nəzarət etməlidir.

Qeyd etmək lazımdır ki, sözügedən bu məsələ Kosmos haqqında Sazişin VI maddəsindəki müddəaya əsaslanaraq kosmosdakı milli fəaliyyətlərə görə dövlətlərin üzərinə «səlahiyyət və davamlı nəzarəti» təmin etmək məsuliyyətini qoyur. Eyni zamanda, buraya həm hökumət, həm də qeyri-hökumət təşkilatlarının fəaliyyəti daxildir. Hüquqşünas alim Riki Li bildirir ki, VI maddədən həm də o da aydın olur ki, dövlətlər özəl qurumların fəaliyyətinin «davamlı nəzarətə» tabe olmasını təmin edərək belə fəaliyyətlərə görə beynəlxalq məsuliyyət daşıyırlar.

Digər tərəfdən hava və kosmik məkanı tənzimləyən hüquqi rejimlər arasında mövcud

fərqliliklərdən irəli gələrək mübahisə xarakterli məsələlər ortaya çıxır: hava məkanı dövlətin suverenliyinin aid olduğu sahə olmasına baxmayaraq, kosmos suverenlik iddialarından kənarda qalır. Çikaqo Konvensiyasının I maddəsi aşkar şəkildə dövlətin öz hava məkanı üzərində tam və müstəsna suverenliyi prinsipini təsbit edir. Bunun əksinə, Kosmos haqqında Sazişin II maddəsində qeyd edilir ki, kosmos suverenlik iddiası ilə milli mənimsəmə subyekti deyildir. Professor Stiven Truxel bu məsələyə toxunaraq qeyd edir ki, hazırda beynəlxalq hüquq çərçivəsində hava məkanı üzərində suverenlik prinsipi qeyri-suveren hava məkanının başlanması ilə bitir».

«Kosmos haqqında» 1967-ci il tarixli Saziş və «Kosmik obyektlərin vurduğu zərərə görə beynəlxalq məsuliyyət haqqında» 1972-ci il tarixli Konvensiyaya uyğun olaraq iki hüquqi rejim arasında uyğunsuzluğu əks etdirən başqa bir cəhət odur ki, kosmos hüququnda maddi məsuliyyət kosmik obyekti buraxan dövlətin üzərinə düşür [17]. Hava hüququnda isə əksinə Varşava və Monreal Konvensiyalarına uyğun olaraq maddi məsuliyyət aviadaşıyıcının və ya hava gəmisi operatorunun üzərinə qoyulur [12].

Hava və kosmik məkanı tənzimləyən qaydalar arasındakı fərqlər vahid bir nəticənin əldə edilməsində əsas maneə kimi qəbul olunur. Vahid bir nəticə dedikdə hazırda geniş şəkildə təklif olunan aerokosmos hüququ konsepsiyasını nəzərdə tuturuq. Artıq uzun illərdir ki, beynəlxalq ictimaiyyət hava və kosmik məkan arasında delimitasiya məsələsində konsensusa gələ bilmir. Suborbital uçuşların reallaşdırılması dövlətlərə imkan verəcək ki, belə fəaliyyətlərlə əlaqədar olan risklərin və dövlətə aid edilən beynəlxalq öhdəlik və maddi məsuliyyətlərin tənzimlənməsi və nəzarəti üçün ən uyğun olan variantı seçsin. Buna baxmayaraq delimitasiya məsələsini hazırda insanların iştirakı ilə planlaşdırılan subortbital uçuşların hündürlüyü ilə əlaqələndirmək potensial olaraq məsələnin mahiyyətini mürəkkəbləşdirir. Çünki, kosmik missiyanın texniki cəhətdən suborbital, orbital və ya planetlərarası olmasını müəyyən edən müvafiq vasitənin tezliyidir. Yəni bu nüans tam olaraq hündürlüklə bağlı deyil. Uzun illər ərzində insansız suborbital uçuşlar adi qaydada 100 km-dən aşağıda və ya aşağı Yer orbitinin ən yuxarı sərhədi çərçivəsində həyata keçirilirdi. Bu səbəbdən də suborbital uçuşlar və açıq kosmosun delimitasiyası məsələsinin tənzimlənməsi olduqca zəruridir. Amma bu məsələnin hüquqi cəhətdən tənzimlənməsi iki hüquq sahəsinin birləşdirilməsinə gətirib çıxarmamalıdır. Çünki əsaslı fərqli cəhətlər bu sahələrin vahidliyi və birliyini tam şəkildə təmin edə bilməz.

Onu da nəzərə almaq lazımdır ki, hava məkanının və kosmosun delimitasiyası üzrə hər hansı bir beynəlxalq hüquqi razılaşmanın əldə olunmamasına bir çox məsələlər səbəb olmuşdur. Bunların içərisində təhlükəsizlik məsələləri, xarici ölkələrin casus təyyarələrinin və kosmik obyektlərin digər ölkənin üzərindən uçub getməsi və kosmik məkana məhdudlaşdırılmış girişlə bağlı maraqların toqquşmasını qeyd etmək olar. Hava gəmilərindən istifadə etməklə həyata keçirilən «müşahidə» missiyaları məsələsi 1992-ci ildə «Açıq səma» Sazişinin imzalanması ilə müəyyən mənada həll edilmiş oldu [18]. Bu saziş, ilk dəfə 1955-ci ildə sabiq ABŞ Prezidenti Eyzenhauer tərəfindən Vyana sammitində verilən ideyadan qaynaqlanmışdı [15]. Təhlükəsizlik problemləri ərazi üzərindən uçub gedən kosmik obyektlər üçün orbit məkana qalxanda və ya Yerdən-Yerə suborbital uçuşlar zamanı (məsələn, Qitələrarası ballistik mərmi (QABR)) aktual olaraq qalır. Ümumilikdə isə uçuş kommersiya cəhətdən nəzarət edilən milli hava məkanından (18.3 km) və beynəlxalq hava məkanından yuxarıda həyata keçirilir.

Bu iki sahə arasındakı fərqlilikləri təhlil edərkən mütləq şəkildə sözügedən məsələyə kosmos hüququ nöqteyi-nəzərindən yanaşmaq lazımdır. İlk öncə qeyd etməliyik ki, hər iki hüquq sahəsi XX əsrdə yaranıb. Amma hava hüququ kosmos hüququndan daha tez yaranıb. Bəzi alimlərin təbirincə desək, kosmos hüququ, beynəlxalq hüquq çərçivəsinə edilən son

əlavələrdən biri hesab olunur. Məlum olduğu kimi, 1957-ci il 4 oktyabr tarixində «Sputnik-1» adlı Yerin ilk süni peyki SSRİ tərəfindən orbitə buraxılmışdır. XX əsrin 50-60-cı illərindən başlayaraq yüksək texnologiyalar sahəsində aparılan intensiv fəaliyyətlər nəticəsində dünya yeni bir kosmik eraya qədəm qoydu. 1981-ci ildə ilk dəfə çoxistifadəli «Kolumbiya» kosmik gəmisi iki astronavtla birgə kosmosa çıxdı. Bu hadisə ilə əlaqədar NASA-nın yerüstü texnoloqu fərəhlənərək belə demişdir: «Mən əminəm ki, 1990-cı il üçün insanlar müntəzəm olaraq bu cür şatllardan təyyarə kimi istifadə edərək kosmosa çıxacaqlar». Əlbəttə ki, hələ bu fikirlər tam realizə edilməmişdir. Bu fikrin qismən doğru olmasını onunla izah edə bilərik ki, 1990-cı ilədək məhz kosmik gəmi əsasında aerokosmik gəminin hazırlanması konsepsiyası ilə bağlı aktiv iş aparılmışdır [2, 5-10].

1983-cü ildə professor Bökştigel kosmos hüququ ilə bağlı belə bir mülahizəni irəli sürmüşdür: Kosmos hüququ beynəlxalq hüququn yeni sahəsidir... və digər sahələrdən daha çox sürətli elmi-texniki tərəqqinin nailiyyətlərindən asılıdır... Aydındır ki, kosmik texnologiyanın tətbiqi kosmosdan kommersiya məqsədləri ilə istifadəni genişləndirəcək. Ancaq bu sahədə özünü maliyyələşdirmənin olduğu halda, bu fəaliyyət uzunmüddətli perspektivdə saxlanıla və genişləndirilə bilər. XX əsr çərçivəsində dövlətlər tərəfindən kosmik resursların istismar edilməməsini təmin edən davamlı hüquq nəzəriyyəsi formalaşmış və kosmosda fərdi və dövlət davranışı üçün müvafiq məsuliyyət elementlərini təsbit etmişdir. Etiraf etmək lazımdır ki, artıq son illərdə bəzi dövlətlər tərəfindən bu nəzəriyyədə bir sıra dəyişikliklər edilmişdir [2]. Bununla bağlı artıq beynəlxalq səviyyədə bəzi dövlətlər tərəfindən yeni tendensiyaları müşahidə edirik.

Ümumiyyətlə, kosmos hüququnun hüquqi və fəlsəfi əsasları hava hüququnun tam əksi hesab oluna bilər. Çünki kosmik məkan «bəşəriyyətin ümumi irsi» olduğu üçün, heç bir dövlət və ya şəxs bu məkanın hər hansı bir hissəsinin ona aid olmasını iddia edə bilməz. Bütövlükdə kosmos hüququ məhz bu prinsipin üzərində formalaşmış və müasir mərhələyə gəlib çıxmışdır. Hava hüququnda isə çox əsaslı şəkildə dövlətin öz hava məkanı üzərində tam və müstəsna suverenliyi prinsipi möhkəmlənmişdir. Hava hüququ daha çox milli hüquqi təsirlərin əhatəsində qalsa da, kosmos hüququ millətlərarası hüquqi prinsipləri əsas götürür. Buna görə də beynəlxalq ümumi hüququn prinsipləri kosmos hüququnun prinsiplərinin tətbiq olunmasında xüsusi rol oynayır. Qeyd etdiyimiz kimi, kosmos hüququnun əsas prinsipi 1958-ci ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının kosmik məkan üzrə ilk xüsusi qətnaməsinin nəticəsi olaraq ortaya çıxan «ümumi maraq» (və ya ümumi irs) prinsipidir [2]. «Ümumi maraq» prinsipi sonradan qəbul edilən çoxtərəfli müqavilələrə, xüsusilə də 1967-ci il tarixli Sazişin I maddəsi ilə nəzərdə tutulmuş «Kosmos haqqında» Sazişə daxil edilmişdir: «Ay və digər səma cisimləri də daxil olmaqla, kosmik fəza bərabərlik əsasında və beynəlxalq hüquqa müvafiq olaraq, hər hansı ayrı-seçkilik olmadan bütün dövlətlər tərəfindən tədqiqat və istifadə üçün açıqdır və səma cisimlərinin bütün sahələrinə azad giriş mövcuddur. Ay və digər səma cisimləri də daxil olmaqla, kosmik fəza elmi araşdırmalar üçün azaddır və Dövlətlər belə tədqiqatlarda beynəlxalq əməkdaşlığı dəstəkləyir və təşviq edirlər». Sazişi imzalayan dövlətləri bir-birinə bağlayan bu müddəa, beynəlxalq hava hüququnun ənənəvi «milli maraqlar» yanaşmasından bir qədər uzaqdır. Kosmos hüququnun bu müddəası artıq «jus cogens» və ya məcburi hüquqi prinsipi kimi öz təsbitini tapmışdır.

Fəlsəfi nöqteyi-nəzərdən, kosmos hüququ ictimai maraqları əsas tutaraq idealist məktəbi təmsil edirsə, hava hüququ isə milli maraqların bütün məqsədlər üçün önəmli olduğunu ehtiva edən realist məktəbi səciyyələndirir. Bu səbəbdən də kosmos hüququnun fəlsəfəsinin öyrənilməsi beynəlxalq ümumi hüququn təbiətinin öyrənilməsini tələb edir [2]. Hesab edirik ki, təməl prinsiplər nöqteyi-nəzərindən hava hüququ və kosmos hüququ əsaslı şəkildə bir-birindən fərqlənir. İki hüquq sahəsinə

münasibətdə məqsədəuyğun yanaşmaya üstünlük verən qabaqcıl ölkələr uzun illərdən bəri hava və kosmos hüququnu əlaqəli formada tədqiq edir. Sözsüz ki, bu sahələr arasında əlaqəlilik və bağlılığın çoxsaylı səbəbləri vardır. Amma bu o demək deyil ki, bu sahələr birləşməli və vahid sistemə daxil olmalıdır. Əslində, hava hüququ və kosmos hüququ arasında eyniləşdirmənin aparılması ziddiyyətlərə gətirib çıxara bilər. Bu ziddiyyətlər isə təhlil edilən fərqli cəhətlərlə bağlıdır. Təhlil edilən fərqli cəhətləri konkret formada açıqlayaraq sxematik şəkildə ifadə edək.

Hava və kosmos hüququ arasında əsas fərqli məqamları aşağıdakı qaydada belə ümumiləşdirə bilərik: xətlə davam etmişdir. Müəyyən dövrlərdə irəli sürülən müxtəlif konseptual nəzəriyyələr və yanaşmalar istisna olmaqla bu ənənə bu istiqamətdə olub. Hər iki hüquq sahəsi beynəlxalq hüquq daxilində ayrı-ayrı hüquq sahələri olub, bu qaydada formalaşıb müasir mərhələyə çıxa bilmişlər. Lakin hələ də müəyyənləşdirilməmiş bir çox hüquqi məsələlərlə əlaqədar olaraq bu gün adıçəkilən hüquq sahələri beynəlxalq təcrübədə əlaqəli və bir-birinə bağlı surətdə araşdırılır və tədqiq edilir. Məhz bu əlaqəliliyin nəticəsidir ki, artıq uzun illərdən bəri inkişaf etmiş ölkələrin təcrübəsində (hüquq sahələrinin indeksləşməsində) "hava və kosmos hüququ" adlı ixtisasın tədrisi həyata keçirilir. Bununla bağlı postsovet ölkələri istisnaya

| Hava hüququ | Kosmos hüququ |
|---|---|
| "hava məkanı"na tətbiq edilir. | "kosmik məkana" tətbiq edilir. |
| "hava gəmisinə" tətbiq edilir. | "kosmik obyektlərə" tətbiq edilir. |
| Dövlətlər öz hava məkanı üzərində tam və müstəsna suverenliyə malikdir. | Dövlətin kosmos üzərində suverenliyi qadağan edilir. |
| Havayolu şirkətinin və ya aviadaşıyıcının üzərinə maddi məsuliyyət qoyur. | Dövlətin üzərinə maddi məsuliyyət və nəzarət cavabdehliyi tətbiq edilir. |
| Dövlətlərdən hava gəmisini sertifikatlaşdırmaq və qeydiyyata almaq tələb olunur. | Beynəlxalq qeydiyyat rejimi qüvvədədir. |
| Dövlətlərdən təhlükəsizlik və naviqasiyanı tənzimləmək tələb edilir. | Universal təhlükəsizlik və naviqasiya standartları yoxdur. |
| Dövlətlərdən səs və hava tullantılarını tənzimləmək tələb edilir. | Ətraf mühit standartları dispozitiv (tövsiyə xarakterli) və ya "yumşaq hüquq" normaları kimi qəbul edilir. |

Sxemdə sadalanan fərqli cəhətlərə əsaslanaraq hava hüququ və kosmos hüququ ayrı-ayrı hüquq sahələri kimi araşdırılmalı və öyrənilməlidir. XX əsr təcrübəsi onu deməyə əsas verir ki, bu sahələrin ayrı-ayrılıqda və müstəqil şəkildə tədqiqi və inkişafı yüksələn malikdir. Bu ixtisas magistratura və doktorantura səviyyəsi üçün nəzərdə tutulur. Biz çoxsaylı fərqlilikləri əsas tutaraq hava və kosmos hüququ sahələrinin birləşdirilməsinin tərəfdarı deyilik. Çünki belə bir birləşmə zamanı geriyə çevirmə kimi qəbul oluna bilər.

**Ədəbiyyat:**


1. Организация Объединенных Наций, Генеральная Ассамблея, 9 февраля 2007, Аналитическое резюме ответов на вопросник по возможным правовым вопросам, касающимся аэрокосмических объектов, http://www.unoosa.org/pdf/limited/c2/AC105_C2_L249Add2R.pdf
2. Abeyratne Ruwantissa. Frontiers of Aerospace Law. London: Routledge; 1 edition, 2002, p. 5-10.
3. Baker Sterchi Cowden & Rice, Aerospace Law Blog, https://www.bscr-law.com/?t=39&anc=614&format=xmldetail&stylesheet=FirmNewsItems_blog&p=5258
4. Eötvös Loránd University (ELTE), Aerospace Law. https://www.ajk.elte.hu/file/Aerospace_Law.docx
5. Gide Loyrette Nouel - French law firm, Aviation & Aerospace Law, https://www.gide.com/en/expertises/aviation-aerospace-law
6. Historical Division Information Office Aeronautical Systems Division Air Force Systems Command, October 1963, http://www.dtic.mil/dtic/tr/fulltext/u2/a951933.pdf
7. John Cobb Cooper, Aerospace Law - Subject Matter and Terminology, 29 J. Air L. & Com. 89 (1963), http://scholar.smu.edu/jalc/vol29/iss2/2
8. JULIAN HERMIDA, LEGAL BASIS FOR NATIONAL SPACE LEGISLATION 30 (Springer 2004); Stephan Hobe & Kuan-Wei Chen, "Legal Status of Outer Space and Celestial Bodies", in ROUTLEDGE HANDBOOK ON SPACE LAW 25, 37 (Ram Jakhu & Paul Dempsey, eds., Routledge 2017).
9. Leiden University, e-studiegids, Aerospace Law, https://studiegids.leidenuniv.nl/courses/ show/69973/aerospace_law
10. Outer Space Treaty Art. III.
11. Paul Hamilton, Sarah Nilsson. Practical Aviation & Aerospace Law Sixth Edition. Edition statement 6th Revised edition. Publisher Aviation Supplies & Academics Inc, Publication City/Country Newcastle, United States, 2015. 476 p.
12. Paul Stephen Dempsey, AVIATION LIABILITY LAW (2nd ed., Lexis/Nexis 2013).
13. Paul Stephen Dempsey, "National Laws Governing Commercial Space Activities: Legislation, Regulation & Enforcement, 36 NORTHWESTERN JOURNAL OF INTERNATIONAL LAW & BUSINESS 1 (2016).
14. Rebekah Reed, "Ad Astra Per Aspera: Shaping a Liability Regime for the Future of Space Tourism", 46 Hous. L. Rev. 585, at 590-91 (2009).
15. R. Cargill Hall (1992), The Origins of U.S. Space Policy: Eisenhower, Open Skies, and Freedom of Space. http://www.dtic.mil/dtic/tr/fulltext/u2/a344697.pdf
16. Stephen Gorove, Developments in Space Law: Issues and Policies 339 (Dordrecht, Boston, London: Martinus Nijhoff Publishers, 1991.
17. Steven Truxal, ECONOMIC AND ENVIRONMENTAL REGULATION OF INTERNATIONAL AVIATION 32 (London: Routledge 2017).
18. This treaty entered into force in 2002. http://www.osce.org/library/14127?download=true.


***Açar sözlər:*** *"aerokosmos hüququ", "hava hüququ", "kosmos hüququ", "fərqli cəhətlər", "suverenlik", "delimitasiya", "suborbital uçuşlar", "aerokosmik gəmi"*

**Zafig Khalilov**
*Lecturer, Department of Law, National Aviation Academy of Azerbaijan, PhD in Law*

## INTERNATIONAL AIR AND SPACE LAW: IN THE CONTEXT OF GENERAL AND DIFFERENT ASPECTS

### SUMMARY

The article analyzes the concepts proposing in connection with the definition of air and space law as aerospace law, as well as interprets the features of various legal regimes of air and space law. In addition, the article notes that the identification of air and space law can lead to contradictions. These contradictions are associated with specific differences in both areas.

In the article, for the first time in the Azerbaijani legal literature, the distinction between air law and space law is systematized in a schematic form.

It is emphasized that in the light of many legal issues that have not yet been identified, these legal areas are studied and researched in international practice in conjunction with each other. At the same time, in the article the experience of the development of these areas in the XX century is taken as a basis and attention is paid to the dissemination and research of air and space law individually and independently.

Consequently, a combination of the above-mentioned branches, based on the numerous differences between air law and space law, is not considered acceptable from the point of view of the theory of modern law.

***Key words:*** *aerospace law, air law, space law, various aspects, sovereignty, delimitation, suborbital flights, aerospace object*

**Зафиг Халилов**
*Преподаватель кафедры «Правоведение» Национальной Авиационной Академии, доктор философии по праву*

## МЕЖДУНАРОДНОЕ ВОЗДУШНОЕ И КОСМИЧЕСКОЕ ПРАВО: В КОНТЕКСТЕ ИХ ОБЩИХ И ОТЛИЧНЫХ ЧЕРТ

### РЕЗЮМЕ

В статье анализируются концепции, выдвинутые в связи с характеризацией воздушного и космического права как аэрокосмического права, даются комментарии к различным правовым режимам воздушного права и космического права. Отмечается, что отождествление воздушного и космического права может привести к противоречиям, которые связаны со специфическими различиями обеих отраслей.

В статье впервые в азербайджанской правовой литературе систематиризовано в схематической форме различие между воздушным и космическим правом. Подчеркивается, что в свете многих правовых вопросов, которые еще не были определены, эти правовые отрасли изучаются и исследуются в международной практике во взаимосвязи. В то же время в статье опыт развития этих отраслей в XX веке берется за основу и внимание уделяется распространению и исследованию воздушного и космического права индивидуально и независимо.

Следовательно, комбинация вышеупомянутых отраслей, основанная на многочисленных различиях между ними, не считается приемлемой с точки зрения теории современного права.

***Ключевые слова:*** *«аэрокосмическое право», «воздушное право», «космическое право», «различные аспекты», «суверенитет», «делимитация», «суборбитальные полеты», «аэрокосмический объект»*